| | | |
|---|---|---|
| **Ümumi məlumat** | **Fənnin adı, kodu və kreditlərin sayı** | AZLL206 Müasir Azərbaycan dili-4, 3 kredit, 6 AKTS |
| | **Departament** | Dillər və ədəbiyyatlar |
| | **Proqram (bakalavr, magistr)** | Bakalavr |
| | **Tədris semestri** | 2024/2025-ci tədris ilinin payız semestri |
| | **Fənni tədris edən müəllim (lər)** | Fil. ü. F.d.Almaz Bədəlova |
| | **E-mail:** | doctorant@live.com |
| | **Telefon:** | |
| | **Mühazirə otağı/Cədvəl** | |
| | **Konsultasiya vaxtı** | Tələbələrlə razılaşdırılmış vaxtda |

| | |
|---|---|
| **Prerekvizitlər** | AZLL108 |
| **Tədris dili** | Azərbaycan |
| **Fənnin növü (məcburi, seçmə)** | Məcburi |
| **Dərsliklər və əlavə ədəbiyyat** | Dərsliklər:<br>1. Müasir Azərbaycan dili IV hissə, Bakı,2007<br>2. Q.Kazımov Azərbaycan dilinin sintaksisi Bakı, 2007<br>3. B.Xəlilov.MüasirAzərbaycan dili (Sintaksis), Bakı,2017<br>4. Q.Kazımov Azərbaycan dilində tabeli mürəkkəb cümlənin inkişaf tarixi. Bakı, 2010<br>5. Q.Qəmbərova Sintaksisdən praktikum (dərs vəsaiti),Bakı,2013 |

| | | | |
|---|---|---|---|
| **Tədris metodları** | Mühazirə | + | |
| | Qrup müzakirəsi | + | |
| | İnteraktiv | + | |
| **Qiymətləndirmə** | **Komponentləri** | **Tarix/son müddət** | **Faiz (%)** |
| | Aralıq imtahanı | | 30 |
| | Fəallıq | | 5 |
| | Tapşırıq və quizlər | | 10+10 |
| | Davamiyyət | | 5 |
| | Final imtahanı | | 40 |
| | Yekun | | 100 |

| | |
|---|---|
| **Kursun təsviri** | Müasir Azərbaycan dilinin sintaksis bölməsinin digər bölmələr içərisində xüsusi yeri vardır. Sintaksis bölməsi fonetika, leksikologiya, morfologiya bölmələrini ümumiləşdirir. Bu bölmədə müasir Azərbaycan ədəbi dilinin özündən əvvəlki bölmələri yekunlaşdırılır. Sintaksisdə sözlərin və söz birləşməsinin cümlə şəklində əlaqələnməsi qayda-qanunları öyrənilir. Dilin sintaktik quruluşu dedikdə söz birləşmələrinin və cümlələrin quruluşu başa düşülür. “Müasir Azərbaycan dili-3” kursunda sintaktik əlaqələr, söz birləşmələri, cümlə, cümlənin məqsəd və intonasiyaya görə növləri, cümlə üzvləri (mübtəda, xəbər, tamamlıq, təyin, zərflik), əlavələr, xüsusiləşmələr, cüttərkibli cümlələr, bütöv və yarımçıq cümlələr, söz-cümlə, qrammatik cəhətdən cümlə üzvləri ilə bağlı olmayan sözlər və birləşmələr, mürəkkəb cümlə və onların növləri, mətn, vasitəli və vasitəsiz nitq, durğu işarələri barədə ətraflı məlumat verilir. |
| **Kursun məqsədləri** | Kursun məqsədi tələbələrə Azərbaycan dilinin qrammatik quruluşunu (sintaktik baxımdan) nəzəri cəhətdən ətraflı şəkildə öyrətmək, sintaksislə bağlı mövzuları dərslik və dərs vəsaitlərindən istifadə etməklə araşdırmaq, onlarla birgə dilçi alimlər tərəfindən irəli sürülmüş fikirləri təhlil etməkdir.Eyni zamanda Müasir Azərbaycan dilini interaktiv-fəal təlim üsulları ilə tədris etmək, Azərbaycan dilinin nəzəri və praktik cəhətdən tələbələrə öyrədilməsində yüksək nəticələrə nail olmaq. Tələbələrin nəzəri cəhətdən əldə etdikləri bilik və məlumatları praktikada yoxlamaq, onları bacarıq və vərdişlərə çevirmək, onlarda yüksək nitq mədəniyyəti formalaşdırmaq, lüğət ehtiyatını zənginləşdirmək, doğma ana dilinə məhəbbət hissi aşılamaq. |

| | |
|---|---|
| **Tədrisin (öyrənmənin) nəticələri** | **Kursun tədrisi nəticəsində tələbələr öyrənəcəklər:**<br>1. Müasir Azərbaycan dili-3(sintaksis) təliminin təşkili haqqında təsəvvürləri formalaşacaq.<br>2. Müasir Azərbaycan dilinin sintaktik qruluşu haqqında daha dərin bilgilərə sahib olacaqlar.<br>3. Azərbaycan dilində söz birləşmələrinin və cümlənin əsas xüsusiyyətlərinin müəyyənləşdirəcəklər.<br>4. Müasir Azərbaycan dilində cümlənin növlərini sistemləşdirəcəklər.<br>5. Cümlənin düzgün təşkili, söz sırasından məqsədəuyğun şəkildə istifadəyə nail olacaqlar.<br>6. Müasir Azərbaycan dilində sintaksis ilə bağlı məsələlər təhlil olunacaq.<br>7. Üzvlənməyən cümlələr-söz cümlələr və vokativ cümlələri elmi və praktik şəkildə öyrənəcəklər. |
| **Qaydalar (Tədris siyasəti və davranış)** | **Fəallıq-5**<br>Tələbənin müzakirələrdə iştirakı, dərsə hazırlıq səviyyəsi, mövzularla əlaqəli verilən tapşırıqlar bu qiymətləndirməyə daxildir. Tələbə verilən tapşırığı yerinə yetirmədiyi halda bu bal ümumi qiymətləndirmədə nəzərə alınmır. Həftəlik tapşırıqlar fəallıq balı olaraq hesablanacaq.<br><br>**Davamiyyət-5**<br>Semestr ərzində tələbənin dərsdə iştirakına görə bal verilir. 2 qaib 1 balı kəsir. Üniversitet tərəfindən müəyyənləşdirilmiş limiti (icazəli və ya icazəsiz) istifadə edən tələbə davamiyyət balı almayacaqdır.<br><br>**Tapşırıq-10**<br>Müəyyənləşdirilən mövzu ilə əlaqəli mətnlər üzərində və yazı çalışması əsasında qiymətləndirmə ediləcək.<br><br>**Aralıq imtahanı-30 bal**<br>Tələbələrin biliyi tədbiqi və test tapşırıqları ilə yoxlanılacaq .<br><br>**Quiz-10 bal**<br>Final imtahanı ərəfəsində (10bal) keçiriləcək. Quiz 10 sualdan ibarət olacaq. Hər 1 sual 1 balla qiymətləndiriləcək.<br><br>**Final imtahanı-40 bal**<br>İmtahan sualları həm tədbiqi, həm də test tapşırıqlarından ibarət olacaq .<br><br>**İmtahan haqqında**<br><br>1.İmtahana hazırlaşarkən dərslərdə götürülmüş qeydləri öyrənməklə yanaşı, dərsin iş planında göstərilmiş ədəbiyyatlara, o cümlədən başqa mənbələrə də müraciət etmək lazımdır.<br>2. Aralıq (30 bal) və Final (40 bal) imtahanlarında həm açıq, həm qapalı, işgüzar sənədlərin hazırlanması ilə əlaqəli sual formalarından istifadə ediləcəkdir.<br>2.Final imtahanında suallar aralıq imtahanından sonra keçilmiş materialların əsasında tərtib olunur. |

| Cədvəl | | | |
|---|---|---|---|
| | **Tarix** | **Fənnin mövzuları** | **Dərslik/Tapşırıqlar** |
| 1 | | Sintaksis haqqında ümumi məlumat<br><br>Cümlədə sözlər arasında əlaqələr | MAD 5-22; QK. MAD3-8 QK. M AD8-35 |
| 2 | | Azərbaycan dilində söz birləşmələri: İsmi söz birləşmələri<br>Feli söz birləşmələri. Zərf birləşmələri | M AD35-50;QK. MAD 35-55<br><br>MAD55-75;QK. MAD55-74 |
| 3 | | Müasir Azərbaycan dilində cümlə.<br>Məqsəd və intonasiyaya görə cümlənin növləri | MAD 76-81;QK. MAD 77-84 MAD 81-104;QK. MAD 88-97 |
| 4 | | Müasir Azərbaycan dilində cümlə üzvləri.<br>Cümlənin baş üzvləri. Mübtəda | MAD104-114;QK. MAD99-103<br><br>MAD114-126;QK. MAD103-110 |
| 5 | | Xəbər.Xəbərin ifadə vasitələri<br>Cümlənin ikinci dərəcəli üzvləri: Tamamlıq | QK. MAD110-119<br><br>QK. M AD119-129 |
| 6 | | Təyin.Təyinin ifadə vasitələri Zərflik.Zərfliyin məna növləri | QK. M AD129-135 QK. M AD1135-152 |
| 7 | | Qrammatik cəhətdən cümlə üzvləri ilə bağlı olmayan sözlər<br><br>Müasir Azərbaycan dilində cüttərkibli cümlələr | QK. M AD1152-163<br><br>QK. M AD1171-176 |
| 8 | | Müasir Azərbaycan dilində təktərkibli cümlələr<br>**Aralıq imtahanı** | QK. M AD1176-195 |
| 9 | | Bütöv və yarımçıq cümlələr<br><br>Üzvlənməyən cümlələr Sadə cümləmi genişləndirən vasitələr | QK. M AD195-204<br>QK. M AD204-227 |
| 10 | | Mürəkkəb cümlə.<br>Tabesiz mürəkkəb cümlələr arasında əlaqələr | QK.MAD.201-288<br>QK. M AD288-301 |
| 11 | | Tabeli mürəkkəb cümlələr. Tabeli mürəkkəb cümlələrin təsnifi. Mübtəda budaq cümləsi. Xəbər budaq cümləsi | QK. M AD325-338<br><br>QK. M AD338-343 |
| 12 | | Tamamlıq budaq cümləsiTəyin budaq cümləsi | QK.MAD.343-351 QK. M AD351-357 |
| 13 | | Zərflik budaq cümlələri: Tərz, dərəcə, Zaman budaq cümləəri<br>Yer və kəmiyyət budaq cümlələri | QK. M AD357-370<br><br>QK. M AD370-378 |
| 14 | | Səbəb və məqsəd budaq cümlələri<br>Şərt və qarşılaşdırma budaq cümlələri | QK. M AD378-387QK. M AD387-400 |
| 15 | | Quiz<br><br>Keçilmişlərin təkrarı | |